# GƏDƏBƏY RAYONUNDA SİEMENS DAĞ-MƏDƏN SƏNAYESİNƏ MƏXSUS MİSƏRİTMƏ ZAVODUNUN YARADILMASININ 160 İLLİYİ



**ETİBAR NADİROĞLU**
*Azərbaycan Yazıçılar, Jurnalistlər və Aşıqlar birliklərinin üzvü, H.B.Zərdabi, Mədəniyyət Nazirliyinin "Qızıl qələm" və Azərbaycan-Almaniya Dostluq Cəmiyyətinin təsis etdiyi "Körpü" mükafatları laureatı, "Siemens izləri" ev - muzeyinin yaradıcısıdır. 3 kitab müəllifidir.*

**Gədəbəy qızıl - mis mədənləri və Siemens qardaşları**

Adətən Gədəbəy mədənlərindən danışanda yadımıza Almaniyadan gəlmiş Siemens qardaşları düşür.

Bu mədənlərin işlənmə tarixinə nəzər salsaq ən qədim dövrlərdən onların faydalı qazıntılarından metal çıxarılmasının şahidi ola bilərik. Arxeoloji tapıntılar göstərir ki, burada tunc dövründə artıq mis hasilatı mövcud olmuşdur.

Lakin sənaye üsulu ilə istismar işlərinə ilk dəfə XIX əsrin ortalarından Alman mütəxxisləri tərəfindən başlanılmışdı. Belə ki, Siemens qardaşları (Siemens & Halske şirkəti) bu sahəyə böyük sərmayə yatırdı. Onu da deyək ki, bu mədənlərin işlənməsinin Azərbaycanın sənaye və mədənçilik tarixində özünəməxsus yeri olmuşdur. Həmin mədənlər əsasən qızıl və mis ehtiyatları ilə tanınır. 1864-cü ildə Siemens şirkəti Gədəbəydə ilk misəritmə zavodunu tikdi.

1873-cü ildə Gədəbəy-Qalakənd mis mədənini Tiflislə birləşdirən teleqraf xətləri çəkildi. Siemenslər burada zavodlar, yaşayış evləri, məktəb və xəstəxana da tikmişdilər.

Gədəbəy mədənləri XIX əsrdə Cənubi Qafqazın ən böyük mis istehsalçılarından biri idi.

Siemens şirkəti Gədəbəy mədənlərini Almaniyada sənaye inqilabının bir hissəsi kimi təqdim edirdi. Siemens qardaşları dağlıq ərazidə material daşımaq üçün kanat yolları və xüsusi dəmir yolu sistemi qurdular. Simenslərin fəaliyyəti nəticəsində Gədəbəydə alman mühəndisləri və ailələri yerləşdi, onlar üçün evlər, məktəblər, kilsə və digər ictimai obyektlər inşa edildi. Bu da bölgədə müəyyən alman mədəni təsirinə səbəb oldu.

1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması ilə Rusiya-Almaniya münasibətləri pozuldu. "Siemens" şirkətinin mülkləri müsadirə edildi və alman mütəxəssislər geri çağırıldı və ya sürgün olundu. Sovet dövründə bu mədənlər milliləşdirildi və dövlətin nəzarətinə keçdi.

Sonda onu deyə bilərik ki, Siemens qardaşlarının Gədəbəydəki fəaliyyəti Azərbaycanın sənaye tarixində texnoloji tərəqqi, enerji istehsalı və mədənçiliyin modernləşdirilməsi baxımından əhəmiyyətli bir mərhələdir. Bu, həm də alman texnologiyasının və mühəndisliyinin Cənubi Qafqazda tətbiq olunduğu ilk nümunələrdən biridir.

Hazırda Gədəbəydə Azərbaycanın ən iri qızıl-mis mədənlərindən biri fəaliyyətdədir və burada Gədəbəy Qızıl-Mis Zavodu fəaliyyət göstərir.

2009-cu ildə Türkiyənin "xronikl" dərgisində Dos. Dr. Nəsrin Sariəhmədoğlu Qaragürün "Siemenslərin Azərbaycan tarixi" adlı yazısı çap olunmuşdu. Həmin yazını jurnalist Etibar Nadiroğlu Azərbaycan türkcəsinə çevirmiş və 2012-ci ilin martında "Kaspi" qəzetində çap etdirmişdi.

Mövzunun maraq kəsb etməsini nəzərə alaraq aşağıda E.Nadiroğlunun "Gədəbəy rayonunda Siemens dağ-mədən sənayesinə məxsus Misəritmə zavodunun yaradılmasının 160 illiyi"nə həsr olunmuş yazısını diqqətinizə təqdim edirik.

***"Yer və insan"***

**Etibar Nadiroğlunun təqdimatında**

Alban və alman memarlıq abidələri ilə xüsusilə məşhur olan Gədəbəy rayonunda Siemens qardaşlarından öncə də mis-qızıl istehsalı mövcud olmuşdur. Məhz onların sayəsində Gədəbəy dünya sənaye xəritəsində möhtəşəm uğurlar qazanmışdır.

Qısaca qeyd edim ki, Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk illərdə Gədəbəyə inzibati rayon statusu verilməsi, idarə-təşkilatların yerləşdirilməsi birmənalı olaraq rayondakı Siemens tikililəri hesabına həyata keçirilmişdi.

* Azərbaycanda alman sənaye burjuaziyası və kapital qoyuluşunun əsas fəaliyyət sahəsi dağ-mədən metallurgiya sənayesi idi.

* Azərbaycanda dağ-mədən sənayesinin sistemli şəkildə təşəkkülü  və inkişafı Siemens qardaşlarının adı ilə bağlıdır.

* Siemens qardaşlarının sənaye fəaliyyətindən əvvəl, onların istehsal gücü qədərində olmasa da, hələ 1849-cu ildən etibarən Gədəbəydə dağ-mədən sənaye fəaliyyəti olmuşdur. (Daha əvvəlki dövrlərdə də Gədəbəydə bu istiqamətdə zaman-zaman işlərin aparılması ehtimal edilməkdədir)

* 1864-cü ildə işə başlamış Gədəbəy dağ-mədən sənaye fəaliyyətində 1865-ci ildən fundamental texniki avadanlıqlar quraşdırılmışdır.

* Gədəbəydəki Misəritmə zavodu müxtəlif illərdə Avropada bu tip ən böyük müəssisələrdən olmaqla, çar Rusiyasında ən böyük mis emalı ünvanı idi.

* Gədəbəy Mis mədəni və Mis əritmə zavodunda 1865-ci ildə işçilərin sayı artıq 450 nəfərə çatmışdı.

* Mədən-zavod işlərində 1868-ci ildə 1000, 1870-ci ildə 1550, 1873-cü ildə 1800, 1875-ci ildə 1600, 1883-cü ildə 2000, 1905-1907-ci illərdə, hətta, 6000-8000 sayda işçi çalışmışdı.

* Siemenslərin böyük qardaşı Verner fon Siemens 1865-ci,  1868-ci və 1890-cı illərdə Gədəbəyə gəlmişdi. O, sonuncu gəlişində buranı Siti (Şəhər) adlandırmışdı.

* Gədəbəydə mədən sənayesi işə düşdüyündə müxtəlif təyinatlı istifadələr üçün Yelizavetpol (Gəncə) Quberniyasının icazəsi ilə Gədəbəy ərazisində 23 min hektar meşə zolağı icarəyə götürülmüşdü.

* Mədən-zavod işlərinə ayrı-ayrı illərdə xarici ölkələrdən texniki avadanlıqlar gətirilmişdi.

* 1870-1875-ci illərdə Zaqafqaziyadakı mədən sənayesində işçilərin sayı 3500 nəfər olduğunda, bunun təxminən yarısı Gədəbəydə qeydə alınmışdı.

* XIX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda "Böyük Bakı" layihəsi həyata keçirildiyində, Avropanın Qotika memarlıq üslubuna xas olan tikililər Bakı, Gəncə, Göygöl və Gədəbəydə də inşa olunmuşdu və bunlar Şərq memarlığı ilə harmoniya yaradırdı.

* Sovet hakimiyyəti qurulduğu vaxtlarda Gədəbəy rayonunun inzibati rayon mərkəzi strukturları məhz Mədən-zavod kompleksinə məxsus tikililərdə yerləşdirilmişdi.

* Mədən-zavod kompleksinə məxsus olmuş tikililərin hazırda əksəriyyəti yaşayış binaları kimi istifadədədir .

* Gədəbəydəki müəssisələrin mühəndis və layihəçiləri Almaniyadan və Rusiyadan  dəvət edilmişdilər.

* Gədəbəydəki mədən-zavod işlərində 1872-ci ildə işçilərin ilk dəfə etiraz nümayişi, tətili olmuşdu.

* Təkcə Azərbaycanda deyil, Zaqafqaziyada belə, dağ-mədən sənayesinin ilk nümunəsi Gədəbəydəki Mədən-zavod sənayesidir.

* 1873-cü ildə Gədəbəy mədən şəhərciyində 6 verst (1 verst-1.06 km) uzunlu-ğunda Kanat xətti quraşdırılmışdı.

* 1873-cü ildə Gədəbəy mədən şəhərciyində Mis mədəni ilə Misəritmə zavodu arasında 6 km uzunluğunda dəmiryolu xətti işə salınmışdır.

* 1877-ci ildə çar Rusiyası üzrə 214 min pud mis istehsal ediləndə, onun 53 min pudu Gədəbəy Misəritmə zavodunun istehsalı idi.

* 1879-cu ildə bünövrəsi qoyulmuş Gədəbəy-Qalakənd (Gədəbəy - Düzyurd - Çalburun - Səbətkeçməz - Qalakənd) 32 km uzunluğunda dəmiryolu xətti 1884-cü ildə işə düşmüşdür.

* Üzərində "Berlin 1878-ci il" yazılmış parovoz İkinci Dünya müharibəsi illərində Gədəbəy mədən şəhərciyində qazanxana kimi istifadə edilmişdir.

* Gədəbəydəki Misəritmə zavodundan sonra ikinci bu tip zavod 1883-cü ildə Qalakənddə işə salınmışdır.

* Məlum əsrin səksəninci illərindən başlayaraq Gədəbəy və Qalakənddəki zavodlarda odun yanacağı maye yanacağı (mazut və neft) ilə əvəz olunmuşdu.

* 1885-ci ildən başlayaraq Gədəbəy Misəritmə zavodunda mislə yanaşı, dəmir və çuqun da istehsal edilmişdi.

* Sözügedən illərdə Gədəbəy mədən şəhərciyində yaradılmış Rus-alman-tatar məktəbində azərbaycanlılarla birgə digər xalqlardan olanlar təhsil almışlar.

* Mədən-zavod kompleksinin fəaliyyəti dövründə Gədəbəy şəhərində təşkil olunmuş Rus-alman-tatar ibtidai məktəbində müxtəlif yaşlarda olan yerli sakinlər də oxumuşlar .

* Gədəbəy Rus-alman-tatar məktəbində təhsil almış bir çox gədəbəyli sonralar elmi və ictimai sahələrdə tanınmışlar.

* Əslən Gədəbəydən olan və Azərbaycanın ictimai-siyasi-elmi tarixində önəmli izlər qoymuş İslam Əliyev, Rüstəm Əliyev, Rəhim Hüseynov, Məhərrəm Hüseynov, Müseyib Hüseynov, Mirzə Teymur Əhmədli, Mirzə Sadıqov və digərləri müxtəlif zamanlarda Rus-alman-tatar məktəbində oxumuşdular.

* Dünyada dördüncü, çar Rusiyasında ikinci (bəzi mənbələrə görə birinci) və Saqafqaziyada birinci olan Qalakənd SES 1888-ci ildə işə salınmışdır.

* Dünyada birincilər sırasında Siemens-Billiter elektroliz laboratoriyası Qala-kənd Misəritmə zavodunda quraşdırılmış və bu üsulla təmiz mis əldə edilmişdir.

* Qalakənd Hidroelektrik Stansiyası (HES) vasitəsilə Qalakənd Misəritmə zavodu nəzdində Elektrik tökmə zavodu da fəaliyyətdə olmuşdu.

* Gədəbəy mədən şəhərciyində sənayedən başqa, yaşayış binaları, küçələr və Tala adlanan meşə massivindəki istirahət yeri də elektriklə təmin edilmişdi.

* Qalakənd HES ərazisində zəngin əhatəli balıqçılıq təsərrüfatı yaradılmışdı.

* İlk vaxtlarda odun yanacağından istifadə edilmiş Gədəbəy və Qalakənd Misəritmə zavodlarında yanacaq tələbatı üçün 1892-ci ildə Dəllər Dəmiryolu Stansiyasından (Şəmkir rayonu) Çardaqlı (Şəmkir rayonunun Çənlibel kəndi) kəndinə, 1894-cü ildə isə Gədəbəy mədən şəhərciyinə boru-neft kəməri çəkilmişdir. (Qeyd: Azərbaycanda ilk boru neft kəməri (14 km) 1878-ci ildə Balaxanı-Bakı Neft emalı zavoduna çəkilmişdir.

* 1880-90-cı illərdə Gədəbəy və Qalakənd Misəritmə zavodları çar Rusiyası üzrə ən iri kapitalist sənaye müəssisələri sayılırdı.

* Zamanında Gədəbəy Mis mədəni və Gədəbəy Misəritmə zavodunda 300 alman ailəsi işləmişdi.

* Gədəbəydəki mədən sənaye kompleksinin fəaliyyəti dövründə vəfat etmiş əcnəbilərin bir çoxu Gədəbəydə (ehtimallara görə Gədəbəy şəhərindəki Kilsənin (meşə massivi) ətrafında dəfn edilmişdir.

* Gədəbəy Misəritmə zavodu ilə Gəncə şəhəri arasında 84 km-lik Teleqraf xətti çəkilmişdi.

* Ötən əsrin 90-cı illərində biri Gədəbəy olmaqla 10-dan çox əcnəbi (Almaniya, İngiltərə, Fransa, Belçika, Yunanıstan və s.) şirkət Azərbaycanda fəaliyyətdə olmuşdu.

* 1891-ci ildən başlayaraq çar Rusiyası Hökumətinin qərarına əsasən Gədəbəydəki zavodlardan mis və qızıl tozuna görə gömrük haqqı alınırdı.

* Gədəbəy Mis mədənində əllə aparılmış qazma işləri 1893-cü ildən almazla, 1902-ci ildən isə elektrik üsulu ilə aparılmışdır.

* XIX əsrin sonuna yaxın Gədəbəy Misəritmə zavodunda sobaların sayı 50-ni ötmüşdü.

* Siemenslərin dövründə Gədəbəy Mis mədənində 100 milyon yarım puddan çox mis filizi çıxarılmışdır.

* Gədəbəy Misəritmə zavodundan müxtəlif illərdə ildə 100 min puda qədər kükürd kolçedanı "Nobel qardaşları" şirkətinə satılmaqla Bakıya göndərilmişdi.

* Gədəbəydəki mədən-zavod fəaliyyəti dövründə Mis dağındakı mədəndən başqa, həmçinin Gədəbəy rayonunun Novoqorelovka, Çolpan, Bittibulaq, Qoşqar-çay və s. yerlərində də kəşfiyyat-qazma işləri aparılmışdır.

* Gədəbəydəki mədən-zavod fəaliyyəti dövründə hər 18 min pudd misdən 13 kq qızıl və 240 kq gümüş alınması qeydiyyata alınmışdı.

* Gədəbəy və Qalakənd Misəritmə zavodlarında istehsal olunmuş xalis misin az hissəsi Azərbaycanda saxlanılmaqla, əsasən çar Rusiyasının Peterburq (indiki Sankt-Peterburq), Moskva, Nijni Novqorod və Avropanın bir sıra şəhərlərinə göndərilmişdir.

*Gədəbəydəki 1905-ci ildə Çar Rusiyasının bütün misəritmə zavodlarında 8143 nəfər işləyəndə, təkcə Gədəbəy və Qalakənd Misəritmə zavodlarında 2016 nəfər işləmişdi.

*1910-cu ildə çar Rusiyasındakı mədən sənaye üzrə 12250 pud mis qeydə alınmışdısa, həmin ildə Gədəbəy və Qalakənd zavodlarında 95500 pud mis istehsal olunmuşdu.

* Gədəbəy və Qalakənddə 1864-1914-cü illərdə 3 ton qızıl, 52 ton gümüş, 1867-1916-cı illərdə 640 ton kobalt istehsal edilmişdi.

* Gədəbəy-Mədən şəhərciyində sənaye və yaşayış təyinatında onlarla bina tikilmişdi (mütləq çoxluğu hazırda istifadədədir).

* Gədəbəy-Qalakənd istiqamətində sənaye məqsədli 100-dək körpü, akveduk (su keçidləri) və tunel inşa olunmuşdu.

* Gədəbəy-Mədən şəhərciyində sənaye, tikinti

və kənd təsərrüfatı (həftəlik) bazarı yaradılmışdı (indi də Aşağı bazar kimi yaddaşlardadır), mehmanxana, xəstəxana, teatr salonu, kitabxana mövcud idi, yay və qış gəzintiləri-ovlar təşkil edilirdi.

* Gədəbəydəki xəstəxanada Almaniya və Rusiyadan dəvət edilmiş həkimlərlə yanaşı, sonrakı illərdə yerli həkimlər də çalışmışlar.

* Mədən və zavod işçiləri əsasən meşə massivində qış və yay ovuna çıxırdılar.

* Gədəbəydə ilk dəfə Siemenslərin vaxtında yay və qış idman növləri üzrə əyləncələr, yarışlar keçirilmişdir .

* Siemenslərin Gədəbəy və Qalakənd meşə massivlərində indiki turizm anlamında olan bir sıra təyinatları olmuşdur (piyada və atla gəzintilər, balıq tutmaq üçün Şəmkir çayının bəndlərlə kəsilmiş yerləri, çayda çimmək yerləri, tarixi və təbiət abidələrinə baxış və s.)

* Onlar həmçinin yerli sakinlərin satdıqları əl əməyi məhsullarına: dəmir, mis və ağac materiallarından hazırlanmış əşyalar, həmçinin yerli sakinlərin toxuduqları xalça, kilim, xurcun, əlcək, corab, müxtəlif üst geyimləri və s.) xüsusi diqqət verirmişlər.

* Siemens təmsilciləri yerli sakinlərin dəvətləri ilə milli adət-ənənə, bayram və müxtəlif ziyafət süfrələrinə qonaq olurmuşlar.

* Mədən və zavodun əcnəbi işçiləri Gədəbəydə həm öz milli bayramlarını qeyd edirdilər, həm də həvəslə yerli sakinlərin böyük coşquyla qeyd etdikləri Bahar bayramında iştirak edirdilər.

* Gədəbəy-Mədən şəhərciyindəki Kərpic zavodunda hörgü, dam örtüyü və s. üçün həftədə 5000-10000, hətta 20000 sayda kərpic hazırlanırdı.

* Gədəbəydəki Kərpic zavodunun məhsulları şəhərdəki topdansatış yerlərində həm yerli əhaliyə, həm də digər yerlərdən gələnlərə satılırdı.

* O illərin xarici mətbuatında Gədəbəy-Mədən şəhərciyi Şimali Amerikanın mədən sənaye şəhərinə bənzədilmişdi.

* Qalakənddən başqa Gədəbəy-Mədən şəhərciyində də Su elektrik stansiyası tikilmişdi.

* Nəinki Bakı və Tiflisdə, həm də Peterburq (Sankt-Peterburq), Moskva və Varşava kimi şəhərlərdə belə küçələr kerosin lampalarla işıqlandırılanda, Gədəbəy-Mədən şəhərciyindəki küçə və binalarda işıqlandırılma elektriklə təmin olunmuşdu.

* Sahibkar qardaşların böyüyü, zamanında həm də alim, ixtiraçı kimi tanınmış Verner fon Siemens Gədəbəyə gəlişlərinin birində Gədəbəy şəhəri barədə "Mən burada bir Avropa guşəsini görürəm" – demişdi.

* Verner fon Siemens Berlin Texniki Universitetinin fəxri doktoru və Prussiya Elmlər Akademiyasının üzvü idi.

* Qardaşlardan Valter Siemens və Otto Siemens zamanında Prussiyanın Tiflis şəhərində konsulu işləmişlər.

* İyirminci əsrin əvvəllərində Gədəbəy və Qalakənddəki müvafiq zavodlar Çar Rusiyası, həmçinin dünya misəritmə sənayesində öncül yerlərdə idi.

* 1915-ci ildə Siemens qardaşlarının göstərişi əsasında Gədəbəy-Qala-kənd dəmiryolu xətti sökülmüşdü.

* Gədəbəy dağ mədən və zavod işçilərinin bir hissəsi 1915-ci ildə Siemens rəhbərliyi tərəfindən Gürcüstanda tikilmiş Kvartsxan Misəritmə zavoduna işləməyə göndərilmişdi.

* Gədəbəydən aparılmış tarixi əhəmiyyətli eksponatlar indiyədək Almaniya, Rusiya Federasiyası, İsveçrə və Gürcüstan muzeylərindədir.

* Gədəbəydəki Misəritmə zavodunda kimya və Elektrik sahələrinin rəhbəri işləmiş Valdemar Belkin rəhbərliyində Gədəbəy-Mədən şəhərciyində, həmçinin rayonun müxtəlif kəndlərində son tunc-erkən dəmir dövrünə aid 300-dən çox qəbirdə arxeoloji tədqiqat-qazıntı aparılmışdır.

* Valdemar Belk sənaye mütəxəssisi olmaqla yanaşı vətəni Almaniya-da həm də tarixçi-arxeoloq alim kimi tanınmışdı.

* Valdemar Belk Gədəbəydə apardığı arxeoloji qazıntılardan topladığı eksponatları Almaniyaya, professor Rudolf Virxofa və onun yaratdığı "Rudolf Virxof fondu"na göndərmişdir.

* Vaxtilə Gədəbəydə misdən hazırlanmış və əsasən Almaniyaya aparılmış mis məmulatlar dünyanın müxtəlif muzeylərində saxlanılmaqla nümayiş etdirilməkdədir.

* Sovet dönəmində Gədəbəy Misəritmə zavodunun ilk azərbaycanlı direktoru işləmiş Mirzə Sadıqov sonrakı fəaliyyəti dövründə elm sahəsində tanınmış professor, SSRİ Dövlət mükafatı laureatı olmuşdur.

* Gədəbəydəki dağ-mədən işlərində və zavodlarda əsas say çoxluğu azərbaycanlılar olmaqla, ruslar, albanlar, ukrainlər, yunanlar, almanlar, bolqarlar, rumınlar, italyanlar, ermənilər və d. işləmişlər.

* Gədəbəydəki mədən-zavod rəhbərliyi maddi mə-

sul işlərə almanlar və ruslardan başqa, həm də azərbaycanlılar arasında öncüllüyü, sözbütövlüyü və s. ilə seçilən şəxsləri irəli çəkirdilər.

* İşçi əcnəbilərlə, xüsusilə almanlarla azərbaycanlılar arasındakı isti münasibətləri müxtəlif məqamlarda pozmaq istəyən ermənilər mədən-zavod rəhbərliyi tərəfindən cəzalandırılır, hətta işdən qovulurdular.

* Müxtəlif yerlərdən Gədəbəydəki zavoda işləməyə gələn ermənilər törətdikləri bir sıra əməllərin qarşılığında zavoddan və Gədəbəydən çıxarılmışdılar.

* Siemenslərin Gədəbəydəki fəaliyyəti, izləri ilə bağlı yaradılmış "Siemens izləri" ev-muzeyinin "Siemenslər Azərbaycanda-150" illik yubileyi münasibətilə Bakı, Gəncə, Göygöl və Gədəbəydə sərgi nümayişləri təşkil edilmiş, Azərbaycan və alman dillərində kitablar-bukletlər nəşr olunmuşdur.

* Siemenslərin ofisi kimi tikilmiş və sovetlər dönəmində rayon poliklinikası olaraq istifadədə olmuş bina Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının sərəncamı əsasında 2011-ci ildən "Siemens izləri" ev-muzeyinə verilmişdir.

* "Siemens izləri" muzeyi fəaliyyətinə görə Azərbaycan-Almaniya Dostluq Cəmiyyətinin "Körpü" mükafatına layiq görülmüşdür.

* Siemenslərin Gədəbəydəki fəaliyyəti, qoyduqları izlər ilə bağlı telekanallar tərəfindən çəkilişlər aparılmışdır: Az TV, ATV, TRT Avaz , Xəzər TV, Lider TV, Space TV, İnter TV və s ...

* Hazırda Gədəbəy şəhərində Siemens adında küçə vardır.

**Üstündən dəmiryolu salınmış Siemens körpüsü**





**Gədəbəy şəhərində Siemenslər dövrünün Mədəniyyət Sarayı**

**Müxtəlif illərdə çap olunmuş kitablar**



